

**HİDAYƏT ORUCOV,**
Azərbaycan Respublikasının
Milli siyasət məsələləri üzrə Dövlət müşaviri

## MİLLİ LİDER EHTİYACI

Dünyanın əksər ölkələrində olduğu kimi Azərbaycanda da uzun müddət milli siyasət müəyyənləşdirilərək həyata keçirilməyib Milli siyasət dedikdə çox vaxt etnik tərkibli rəngarəng və zəngin olan ölkələrdən biri kimi Azərbaycanda millətlərarası münasibətlərin məqsədyönlü tənzimlənməsi başa düşülür. Halbuki milli siyasət millətlərarası münasibətlərin tənzimlənməsi siyasəti anlayışından çox-çox genişdir. Əslində milli siyasət daha geniş anlayış olan dövlət siyasətini də özündə ehtiva edir. Milli siyasətdə dövlət maraqları da xüsusi nəzərə alınmaqla milli maraqlar ön plana çəkilir.

Azərbaycanda tarixən milli maraqlara daha çox diqqət yetirilib. Epoxal mərhələni əhatə edən müstəqil demokratik dövlətçilik ənənəsi olmayan Azərbaycanda dövlət maraqlarını da milli maraqlar əvəz edib. Milli maraqlar anlayışının tarixi kontekstdə şərti işlədildiyi aydındır. İnsan toplumlarının inkişaf prosesinin klassik təsnifatını (etnos, xalq, millət) əsas götürsək, deyə bilərik ki, hər bir mərhələnin özünəməxsus kompleks maraqları olubdur.

**Tanrı ilə insan arasında almadan başlayan konflikt bir mamontu öldürmək və ya bir kahada daldalanacaq tapmaq səlahiyyəti uğrunda çılpaq əcdadlarımız arasındakı olum-ölüm mübarizəsinə çevrilməklə "doğma-yad", "biz" - "qeyri biz" qarşıdurmasını yaratdı. Mamontu ilk dəfə görüb öldürənə və ya kahada ilk dəfə sığınacaq tapana yox, kaha - vətən, mamont - maddi-mənəvi sərvət simvolunda bu gün də yaşayırsa, deməli, güclünün gücsüzə təzyiqi də qalır. Deməli, milli siyasət milli maraqların qorunmasıdırsa, milli siyasətin milli maraqların qorunmasına qədərki ilkin forması etnik, daha sonra, xalq maraqlarının qorunmasıdır. Məntiq də təsdiq edir ki, şərti şəkildə desək, milli siyasətin ən ibtidai təzahür nümunəsi etnosun özünüqoruma instinktinin və potensiyasının stixiyalı təzahürüdür.**

Özünüqoruma instinkti bir qayda olaraq, ayrı-ayrı şəxslərin sağ qalmaq uğrunda təbiətlə, heyvanatla, məxluqatla amansız mübarizəsinin nəticəsində yaranıb. Tədricən təbiətlə, heyvanatla mübarizə təbiət və heyvanat uğrunda (təbii ki, kaha uğrunda da) mübarizə xarakteri alıb.

Ən ümumi və müəyyən mənada obrazlı şəkildə təsvirini verməyə çalışdığımız prosesdə iki məqamın daha önəmli əhəmiyyəti vardır:



**Birincisi**, uzun müddət, məsələn, dağda, meşədə yaşayan Adəm-Həvva övladı bakirə təbiətdə başqa kaha və mamont tapmaq amalı ilə ilan mələyən arana düşəndə, ya adaptasiya sınağından çıxa bilməyərək məhv olub, ya da dağda-meşədəki kimi yaşamaq vərdişini tərgidərək aranda yaşamaq qanunlarını öyrənmək zərurətində qalıb. Deməli, etnosun formalaşmasına L.Qumilyovun konsepsiyasında göstərildiyi kimi, coğrafi amil, landşaft əsaslı təsir göstərib.

**İkincisi,** ulu əcdadlarımız ətrafla mübarizədə də, həmcinsləri ilə mübarizədə də kortəbii şəkildə iki prinsipi əsas götürüblər: 1) güclü haqlıdır; 2) haqlı güclüdür. İkinci prinsip ya məğlubiyyətin ağrı-acısını yaşayan ulu əcdadımızın ümidsizlikdən ölməmək üçün özünün özünə təskinliyidir, ya da möhtəşəmliyi yuvasındakı qarışqanın möhtəşəmliyindən qətiyyən fərqlənməyən ulularımızın ilk fəlsəfi mühakiməsidir?! Bütün hallarda stixiyalı təzahürünü tapan özünüqoruma instinkti mentalitetin formalaşmasında mühüm rol oynayıbdır.

Bəlkə də subyektivlikdir, deyə bilmərəm, amma qəti əminəm ki, dünyanın ən qədim xalqlarından biri kimi Azərbaycan xalqının bütün tarixi boyu "haqlı güclüdür" inamı ilə yaşaması məğlubun təskinliyinin yox, ilk növbədə ibtidai fəlsəfi mühakimənin nəticəsidir.

Bəşəriyyətin tarixi bir də ona görə müharibələr tarixidir ki, əksər hallarda "güclü haqlıdır" prinsipi əsas götürülübdür. Xalqımızın başından fəlakət bir də ona görə əskik olmur ki, əsrlər boyu formalaşaraq dəyişməz xarakter almış mentalitetimizdə aqressivlik olmayıb, etnik-milli şüurumuzda "haqlı güclüdür" prinsipinə inam əsas yer tutubdur. Zəkaya, kamala inam bəlkə də fəlakət və faciələrimizin mənbəyi olubdur, amma, məncə, həm də bizi daha çox məhv olmaqdan xilas edən üstünlüyümüzə çevrilibdir.

Etnik-milli mövcudluğumuz boyu qeyd edilən mənada ilk dəfə milli siyasət kursunun əsas istiqamətlərini, məqsədlərini formalaşdırarkən və gerçəkləşdirərkən tarixə istinad edən məhz Heydər Əlirza oğlu Əliyev olub.

Şübhəsiz, sosial vəziyyətindən asılı olmayaraq, hər bir şəxs xalqın müqavimət potensiyasını işə salmağa qadirdir. Sonralar - cəmiyyətdə tarixi dövrün səciyyəvi institutları, ictimai-mənəvi və ierarxik əlaqələri, milli mentalitetə xas həyat, düşüncə, davranış tərzi, əxlaqi kodeks bərqərar olduqdan sonra etnik mövcudluğu qoruyub saxlamaq səlahiyyəti qeyri-rəsmi şəkildə konkret şəxsiyyətlərə həvalə edildi (yaradıcı qüvvələrə - ozanlara, aşıqlara, yazıçılara, bəylərə, xanlara, ağalara, sərkərdələrə və s.). Nəticədə xalqın özünüqoruma potensialını və enerjisini tənzimləyən liderlər yarandı. Lideri son ümidi Tanrı olan xalqın bəndə timsalında, ümidgaha ehtiyacı yaradır. Heydər Əlirza oğlu da belə bir ehtiyacdan liderə çevrildi.

Vaxtilə K.Marksın məhşur ifadəsində deyilirdi ki, filosoflar dünyanı izah edirlər, məqsəd dünyanı dəyişdirməkdir. Uzun müddət Azərbaycan, sadəcə olaraq idarə edilibdir (izah məqamı). Qlobal məqsədinə nail olmaq naminə ikinci dərəcəli məsələlərə diqqəti cəlb etməklə Heydər Əlirza oğlunun şəxsində Azərbaycana yeni tipli lider gəlirdi: özünü dünyanı izah edən kimi göstər, amma dünyanı dəyişdir.

Dediyimiz kimi, ictimai-siyasi arenaya gəldiyi gündən onun milli siyasət doktrinasını və kursunu özünəməxsus cəhət fərqləndiribdir; bazası tarix, məramı gələcək olubdur.

Görkəmli Çin mütəfəkkiri Konfutsi yazırdı: "Yalnız keçmişi davam etdirməklə gələcəyə çatmaq olar". Əlibəy Hüseynzadə isə qeyd edirdi ki, "Ancaq o millət... nicatda olur ki, özünü tanıya". Heydər Əlirza oğlunun milli siyasət doktrinası və kursunda tarix məhz gələcəyə çatmaq üçün davam etdirilən keçmişdir və tərəqqiyə, nicata çatmaq üçün özünü tanımaqdır. Xilaskarlıq yalnız xalqı hansısa bəladan qurtarmaq deyil, ilk növbədə xalqın özünün-özünü tanıması ilə onun olduğu kimi qorunub- saxlanılmasına təminat yaratmaqdır. Nəticədə məhz Heydər Əlirza oğlu milli siyasəti kortəbiilikdən, kənar müdaxilədən, təsadüflərdən çıxartdı və ona elmi, etnik, sistematik, konseptual, arqumentli xarakter verdi.

Heydər Əlirza oğluna qədərki milli siyasət kursu əslində demək olar ki, olmayıbdı. Belə bir kursu prioritetlər əsasında hazırlayaraq formalaşdıran və tənzimləyərək gerçəkləşdirən rəsmi strukturlar fəaliyyət göstərmədiyi üçün bütün ağırlıq əvvəlcə etnosun, sonra xalqın, daha sonra isə millətin boynuna düşüb. Etnik-milli mövcudluğu qoruyub saxlamaq uğrunda mübarizə iki istiqamətdə gedirdi - birincisi, güclü haqlıdır devizi ilə yaşayanlara qarşı mübarizədə məhv edilməkdən xilas olmaq; ikincisi, spesifik etnik özünəməxsusluqlarını qoruyub saxlamaq, başqa etnosların içində assimilyasiyaya məruz qalmaqla əriyib itməmək. Birinci mübarizə fiziki, ikinci mübarizə mənəvi məhv olmaqdan qorunmaq amalı daşıyırdı.

**Tarix boyu əlverişli coğrafi vəziyyəti, strateji əhəmiyyəti, zəngin təbii sərvətləri Azərbaycanı "güclü haqlıdır" devizi ilə yaşayan dövlətlərin əsarətinə məruz qoyubdur. Müstəqilliyini və azadlığını uzun müddət itirən Azərbaycan müxtəlif etnos və dövlətlərin əsarətinə, assimilyasiya cəhdlərinə baxmayaraq, bütün dövrlərdə Vətəni və özünün etnik-milli varlığını qoruyub saxlayıbdır. Ərəblər gəlib - gedib, farslar gəlib gedib, ruslar gəlib gedib və s. Hər gəlib gedənlərdən sonra daha da müqəddəsləşən Vətən, müqavimət potensiyasını daha da artıran etnos, xalq, millət qalıbdı. Bu isə "haqlı güclüdür" prinsipinin qüdrəti və möhtəşəmliyidir.**

... XX əsr dünya miqyasında gedən ictimai-siyasi proseslərin məntiqi və proqnozlaşdırılması mümkün olan istiqaməti milli azadlıq hərəkatlarının qələbə qazanacağından xəbər verirdi. Başa vurduğumuz yüzillikdə ölkəmizə və xalqımıza şans verilmişdi: SSRİ-nin tərkibində Azərbaycan Respublikasının mövcudluğunun müsbət və mənfi nəticələri qabarıq görünürdü. XIX əsrdə İrəvan xanlığını, Borçalı qəzasını, Dəmirqapı Dərbəndi, Arazın İran tərəfində qalan torpaqları hələ vahid məkan kimi dərk edən nəsli XX əsrin iyirminci illərindən sonra bugünkü sərhədlər daxilində Azərbaycanı Vətən kimi qəbul edən insan əvəz etməyə başladı. Bu, bir tərəfdən, əlbəttə, pis idi ki, ötən əsrdəki əcdadlarımızın içində azərbaycanlılar məskunlaşan ərazilərin bütövlüyünü bu və ya digər dərəcədə yaşaya bildikləri halda, XX əsrdə biz bundan məhrum olduq. Digər tərəfdən yaxşı



idi ki, bizdə Vətən hissi mücərrədçilikdən çıxıb konkret məna və məzmun tutumu qazanaraq daha da gücləndi.

Təhlükəli məqam burasındaydı: stixiyalı müqavimət potensiyasının hesabına milli özgürlüklərini qoruyub saxlayan xalq yenə də tək qalmışdı, yenə də son anda Sözün sehri köməyə gəlirdi. Amma dövr, şərait elə dəyişmişdi ki, artıq bunlar məsələnin həlli üçün kifayət deyildi. Problemin həlli iki istiqaməti qarşılıqlı əlaqədə götürməyi zəruriləşdirirdi: xalqın, millətin müqavimət potensiyasının, özünü qoruma instinktinin möhkəmləndirilməsi üçün tənzimlənərək istiqamətləndirilməsi; yabançı təbliğatın antimilli təsir gücünün maksimum dərəcədə zərərsizləşdirilməsi. Ayrı-ayrı zəif təşəbbüsləri nəzərə almasaq, bu istiqamətdə dövlətçilik təfəkkürünün gücü və miqyası ilə ardıcıl məqsədyönlü iş aparan qüdrətli şəxsiyyət, lider yox idi.

Heydər Əlirza oğlunun ictimai-siyasi arenada, xüsusən də Dövlət təhlükəsizlik orqanlarında yüksək vəzifələrdə fəaliyyətə başlaması ilə milli həyatda və təfəkkürdə yeni eranın təməli qoyuldu. Əlbəttə, Azərbaycan tarixinin Heydər Əlirza oğlu mərhələsi məhz qeyri-adi faydalılığına, taleyüklü məsələləri həll etdiyinə görə yeni eraya çevrildi.

Məramına sıfırdan başlayan Heydər Əlirza oğlu tükənməz enerjisini, ilahidən gələn istedadını və bacarığını şəraitə uyğun səfərbər etmək məcburiyyətində idi. Özündən əvvəlki rəhbərlərdən fərqli olaraq icazə istəmədən və gözləmədən icazə veriləcək halda görülməsi mümkün olan fundamental işləri başlamağa və başa çatdırmağa başladı. Onun dahiliyini, missiyasını gerçəkləşdirmək üçün seçdiyi yeganə mümkün yol da təsdiq edir; millət üçün iş görmək üçün imperiya rəhbərlərinin rəğbətini və inamını qazanmaq. O, qeyri-mümkün olanı mümkün olana çevirdi. Bəzən istəmədiyi sözləri dedi, bəzən istəmədiyi işləri gördü, içindəki millilik qürurunu nəyə qurban verdiyini bilən şəxsiyyət kimi mənən "yox" dediyinə bəzən zahirən "bəli" deməli oldu.

**... Heydər Əlirza oğlu kimi planetar düşüncə və təfəkkür sahibi qlobal məqsədlərinə nail olmaq üçün konsepsiyaya, doktrinalara istinad etməliydi və edirdi.** Əhəmiyyətli cəhət isə bundan ibarət idi ki, dövrə və şəraitə görə bu konsepsiyanı, doktrinanı üzə çıxartmaq, kimlərisə açıq-aşkar bu işə cəlb etmək mümkün deyildi, tanrı onun özünü tək yaratdığı kimi, müqəddəs amallarını həyata keçirməkdə də tək idi. Əslində Heydər Əlirza oğlu heç kimin taleyini riskə qoyub, heç kəsi bu günə qədər də açıqlamadığı, ancaq əməli işlərdən müəyyənləşdirdiyimiz işlərinə cəlb etmirdi, amma ona mane olanlar kifayət qədər idi.

**Heydər Əlirza oğlu bütün fəaliyyəti boyu nəzəriyyə ilə praktikanı əlaqədə götürən mahiyyətin qabarıq nəzərə çarpması üçün zahirən praktiki tərəfə daha çox üstünlük verən realist mütəfəkkir-siyasi xadimlərdəndir.** Təhlükəsizlik orqanlarında işlədiyi vaxtlarda bu qurumun imperiya strukturunda eləcə də müstəqil dövlət quruculuğunda rolunu və əhəmiyyətinini bütövlükdə görən və bilən Heydər Əlirza oğlu nəzəri həqiqəti praktiki əməllə, işlə tamamladı; dövlət təhlükəsizlik sisteminin milliləşdirilməsinə başladı. Şəxsən mən indi

həmən dövrdəki o əməli işin nə dərəcədə təhlükəli olduğunu tez-tez təsəvvürümə gətirirəm, amma tarixi və milli əhəmiyyətini daha əsaslı şəkildə dərk edirəm.

Heydər Əlirza oğlunun 60-cı illərdən başlayan fəaliyyəti əslində Azərbaycanda ilk dəfə sistematik, fundamental milli siyasət kursunun həyata keçirilməsinin başlanğıcıdır.

İlk növbədə belə bir məsələyə xüsusi diqqət yetirmək lazım gəlir ki, biz niyə Heydər Əlirza oğlunun dövlət siyasətindən deyil, milli siyasətindən danışırıq. Birincisi, əvvəldə qeyd etdiyimiz kimi, milli siyasət dövlət siyasətini ehtiva etməklə daha geniş və daha miqyaslı anlayışdır; ikincisi, Heydər Əlirza oğlunun yüksək arenada və çox geniş siyasi müstəvidə fəaliyyətə başladığı 60-cı illərdə Azərbaycan formal olaraq müstəqil dövlət idi, faktiki isə müstəmləkə əsarətinin "sivil" formada tətbiqinə məruz qalırdı, buna görə də müstəqil dövlətə gərəkli və xas siyasətdən danışmaq mümkün deyildi; üçüncüsü, dövlət siyasətini həyata keçirmək üçün ənənə, təcrübə məhdud olduğu üçün, milli siyasəti gerçəkləşdirmək üçün ən azı min ilə yaxın kortəbii də olsa, ənənə və təcrübə var idi.

Heydər Əlirza oğlunun milli siyasət konsepsiyası və kursu üfüqi deyil, şaquli istiqamətlidir. Daha doğrusu, onun konsepsiyası məkan yox, zaman xarakteri daşıyır, ayrı-ayrı müddəaların ardıcıllığında zərurilik, vaciblik əsas götürülürdü. Dövlət təhlükəsizlik sisteminin milliləşdirilməsi tədricən ölkənin bütün idarəetmə strukturlarının, fəaliyyət göstərən rəsmi və ya qeyri-rəsmi bütün qurumlarının milliləşdirilməsinin zəruriliyinə işarə, siqnal oldu. Başqa tarixi faktlar bir yana, 20-60-cı illərin dövri mətbuatını 70-80-ci illərin dövri mətbuatı ilə tutuşdursaq görərik ki, sıravi vəzifələrdən tutmuş rəhbər vəzifələrə qədər bir çox kadrların imzalarının dəyişməsi siqnalın siqnal kimi qalmayaraq fakta çevrildiyini təsdiq etdi. Qonşu respublikalardan fərqli olaraq, Azərbaycanda kadr siyasətinin ciddi nəzarətdə saxlanıldığını və balansın məqsədyönlü şəkildə bizim xeyrimizə olmayan formada tənzimləşdirildiyini nəzərə alsaq, Heydər Əlirza oğlunun perspektivli, müdrik, milli siyasət konsepsiyasının əhəmiyyətinin və onun dahiliyinin sübuta ehtiyacı olmadığı aydınlaşar.

**Heydər Əlirza oğlunun milli siyasət konsepsiyasında əsas məsələlərdən biri təfəkkürdəki, mənəviyyatdakı və mentalitetdəki deformasiyaların qarşısının alınması və sağlam, ilkin təmələ qaytarılması idi.** XIX əsrdə dini etiqadla milli mənsubiyyətin qarışdırılması, XX əsrdə "günəşin", ziyanın, maarifin, mədəniyyətin şimaldan doğması və gəlməsi ideyasının kəskin şəkildə təlqin edilməsi xalqın özünün özünə qaytarılmasını vacib zərurətə çevirmişdi. Nəsilləri bu ideoloji təxribatların yaratdığı stereotiplərdən xilas edərək formalaşdırmaq - Heydər Əlirza oğlunun milli siyasət konsepsiyasının məğzini təşkil edirdi.

Bu milli siyasət konsepsiyası dəqiq, taraz siyasi oriyentasiyası ilə yanaşı, ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatı bütövlükdə əhatə edən kompleks xarakter daşıyırdı. Kompleks şəkildə əhatə olunmanın bütün komponentlərinin təfsilatlı sadalanmasına varmadan indiki halda iki səciyyəvi cəhəti qeyd etmək



yerinə düşür; Heydər Əlirza oğlunun milli siyasət doktrinasında strateji məramа - müstəqillik və azadlıq məramına nail olmaq üçün dövrün imkanlarından maksimum istifadə hesabına milli dövlət quruculuğunun ən vacib atributlarını gerçəkləşdirmək və xalqın təfəkküründə, mənəviyyatında tarixi ilkinliyi bərpa etməklə əsaslı dönüş yaratmaq ön sıraya çəkilmişdi. Dövlət quruculuğu və milli insan - milli siyasət konsepsiyasının prioritet istiqaməti bunlar idi və yerdə qalan bütün digər istiqamətlər məhz bu iki istiqamətin reallaşmasına tabe etdirilmişdi.

Respublikamızda azadlıq uğrunda mübarizənin tarixi qələbə qazanmasında milli siyasət konsepsiyasının bu iki prioritet istiqamətinin əvəzsiz rolu olub. Dövlət quruculuğu ictimai-siyasi, iqtisadi-sosial, elmi-mədəni, ideoloji, mənəvi-əxlaqi və hərbi sahələri əhatə edirdi.

**İqtisadi-sosial sahədə.** "Neft - qara qızıl" diyarı kimi tanınan Azərbaycanın aqrar ölkəyə çevrilməsi bolşevik ideoloqlarının əsas məqsədi idi. Bu istiqamətdə planauyğun ardıcıl iş gedirdi. Doğrudur, pambıqçılığın, taxılçılığın, tərəvəzçiliyin, tütünçülüyün və s. kənd təsərrüfatı sahələrinin inkişafı müsbət hal idi. Amma sənayenin payının məhz aqrar sektora qurban verilməsi ölkəni xammal mənbəyi kimi istismar etmək, elmi-mədəni tərəqqinin qarşısını almaq üçün düşünülmüş aksiya idi. Belə inkişafın ölkənin gələcəyi üçün fəlakət gətirəcəyini ürək ağrısı ilə hamıdan yaxşı bilən Heydər Əlirza oğlu anormal vəziyyətdə başqa rəhbərlər kimi şirin vədlər vermək, günahkarlar axtarıb tapmaq əvəzinə əməli işlər gördü.

**İlk növbədə tədricən sənaye sektorunun xüsusi çəkisi artmağa başladı. Bakı neft akademiyası kimi tanınırdısa, Sumqayıt iri kimya mərkəzinə çevrildi. Gəncədə, Naxçıvanda, Mingəçevirdə, Əli-Bayramlıda, respublikanın digər rayon mərkəzlərində böyük çətinliklər hesabına sənaye obyektlərinin tikintisinə icazə alındı. Bakıda kondisioner zavodu tikildi, yeni yollar salındı, strateji baxımdan mühüm əhəmiyyət kəsb edən Bakı-Balakən , Bakı-Xankəndi dəmiryolu açıldı.**

Azərbaycan iqtisadiyyatında infrastrukturanın sənayenin çəkisinin artırılması hesabına dəyişdirilməsi yalnız əhalinin sosial vəziyyətini yaxşılaşdırmadı, həm də əhalinin sosial tərkibini dəyişdirdi, sənaye sektorunun gücləndirilməsi mədəniyyətin, elmin, təhsilin, SSRİ respublikaları və bir çox dünya dövlətləri ilə qarşılıqlı əlaqələrin inkişafına ciddi təsir göstərdi. Respublika (hətta formal müstəqil olsa da) kimi Azərbaycanın dünyada tanınmasında dönüş yarandı. Aqrar ölkə olaraq qalan Azərbaycanın (neft sənayesini çıxmaq şərti ilə) sənayeləşdirilməsi gələcək müstəqil və azad Azərbaycanın iqtisadi cəhətdən qeyri-asılı mövcudluğunun əvəzolunmaz bazasına çevrildi.

**Hərbi sahədə.** Görkəmli alman filosofu L.Feyerbaxın "ən böyük tanrı" adlandırdığı dövlət quruculuğu ilk növbədə ölkənin və xalqın təhlükəsizliyinin təmin olunmasını zəruriləşdirirdi. **Şübhəsiz, bu zərurəti nəzəri plandan real fakta çevirmək üçün hərbi sahəyə xüsusi diqqət yetirilməliydi. Heydər Əlirza oğlunun milli siyasət doktrinasında iki cəhət nəzərə alınmaqla ordu quruculuğu mühüm yer tuturdu: birincisi, ilk növbədə xalqın mentalitetinə istinad**

**olunurdu. Əvvəllər demişdik ki, tarixi boyu xalqımız "haqlı güclüdür" prinsipi ilə yaşayıbdır. Amma bu heç də o demək deyil ki, döyüşkənlik, mübarizlik, ərənlik xalqımızın xarakterik özünəməxsusluğundan biri olmayıbdır. Min üç yüz illiyini qeyd etdiyimiz "Dədə Qorqud" eposundakı yurd uğrunda igidliklər göstərənlərin, qılıncı azadlıq uğrunda mübarizə simvoluna çevrilmiş Cavanşirin və Babəkin, nərəsi ilə düşmənlərin qəlbinə qorxu salıb səflərini pozan Koroğlunun, aynalısı ilə haqsızlara qarşı qənim kəsilmiş Qaçaq Nəbinin və başqalarının mənsub olduğu xalq kamala, zəkaya üstünlük versə də, yeri düşəndə qılıncla da qüdrətini göstəribdir.**

Döyüşmək bacarığı və istedadı ilə seçilən xalqımız başqa dövlətlərin əsarətində olduğu vaxtlarda onların hərb sənətindən kənarda qalmaları istiqamətində məqsədyönlü iş aparılıbdır. Uzağa getməyək, XIX və XX əsrləri xatırlayaq. Qeyri-xristianları, o cümlədən azərbaycanlıları nəinki elitar zabit korpusuna, hətta sıravi əsgər heyətinə də yaxın qoymurdular. Bolşeviklər də çar Rusiyasının bu siyasətini davam etdirirdilər. A.S.Puşkinin igidliklərini tərənnüm etdiyi azərbaycanlıların, Ə.Şıxlinski, S.Mehmandarov və b. generalların sələfləri XX əsrdə də hərb sənətindən kənarda saxlanılırdı. Bütün imkanlardan istifadə olunmaqla Azərbaycan övladlarının professional hərbçi-zabit kimi yetişmələrinin qarşısı alınırdı.

Digər xarakterik hal orduya çağırılan azərbaycanlı gənclərin müxtəlif coğrafi mövqelərdə yerləşməsi ilə bağlıdır. Əvvəldə də qeyd etmişdik ki, L.Qumilyova görə, coğrafi mühit insan həyatında, xarakterinin formalaşmasında mühüm rol oynayır. Məhz bu amil ya nəzərə alınmadığından, bəlkə də əksinə, nəzərə alındığından gənclərimiz adaptasiya olunmadıqları məkanda yerləşdirilirdilər. Yəni cənubun isti havasına öyrənənlər şimalın soyuq, şaxtalı mühitində əzab çəkirdilər. Onlar çox vaxt xəstələnir, bəzən isə evə şikəst qayıdırdılar.

Bakıda Naxçıvanski adına hərbi məktəbin açılması isə artıq misli - bərabəri olmayan böyük hadisə idi. Bu, artıq başqa formada müstəqillik ideyalarını yaşayan Azərbaycanda milli ordu quruculuğunun başlanğıcı demək idi. Gələcək müstəqil Azərbaycanın milli təhlükəsizliyinə fundamental baza yaratmaq demək idi. Hərb sənətinin tədrisinə təcrübə toplamaq demək idi.

**İctimai-siyasi sahədə.** 20-80-ci illərdə SSRİ-nin müttəfiq respublikalarında, o cümlədən Azərbaycanda iqtisadi sahədə şərti müstəqillik cəhdlərindən danışmaq mümkün olduğu halda, ictimai-siyasi sahədə bu barədə söhbət salmaq qeyri-mümkün idi. Amma dediyimiz kimi, Heydər Əlirza oğlunu fərqləndirən cəhətlərdən biri də qeyri-mümkün olanları mümkün olanlara çevirmək istedadı və bacarığıdır.

20-80-ci illərdə bolşevik - kommunist imperiyasının bütün ideoloji təbliğat maşını və gücü SSRİ-dəki başqa millət və xalqların assimilyasiyasına "mədəni haqq" qazandırmaq üçün yaradılmış "sovet adamı" anlayışının şüurlara yeridilməsinə səfərbər edilmişdi. Təəssüflər ki, bəzi nəticələrə nail olunmuşdu. "Sovet adamı" (gələcəkdə - "sovet xalqı") olmaq üçün bu və ya digər dərəcədə azərbaycanlı olmamaq lazım gəlirdi, milli dəyərlərin, adət-ənənənin, həyat və düşüncə tərzinin, mentalitetin, özgürlüklərin və s. itkisi müəyyən mənada qaçılmazlaşırdı. Digər tərəfdən - qəlibləşdirilmiş standart modellərlə yaşayan SSRİ-nin digər vətəndaşları kimi azərbaycanlılar da siyasi həyatdan tam təcrid olunmuş və siyasi fəallıqlarını itirmişdilər. Görkəmli qırğız yazıçısı Çingiz Aytmatov "manqurt" anlayışını ədəbiyyata gələcəyin bəlası kimi yox, reallığa çevrilmiş həyatımızın faciəsi kimi gətirmişdi. Milli yaddaşını və siyasi fəallığını itirən manqurtların sayı günü - gündən artırdı.



Heydər Əlirza oğlunun milli siyasət doktrinasında vətənçilik iki aspekti əhatə edirdi: birincisi, şovinizmə varmağa yol vermədən hər bir azərbaycanlının alovlu vətənpərvərə çevrilməsinə nail olmaq; ikincisi, xalqın vətəni şüurlu sevməsinə, daha doğrusu, tanıyaraq sevməsinə və Azərbaycanın dünyada tanınmasına nail olmaq. İlk dəfə Heydər Əlirza oğlu respublikaya rəhbərlik etdiyi dövrdə etnik yadlaşma məqsədi ilə aktiv işlədilən İran Azərbaycanı anlayışı Cənubi Azərbaycan anlayışı ilə əvəz olundu; ilk dəfə Elmlər Akademiyasında və Yazıçılar birliyində Cənubi Azərbaycan üzrə struktur yaradıldı, ilk dəfə tədricən yaddaşsızlığın faktına çevrilməkdə olan unudulmuş Borçalı mahal adı kimi işlədildi, ilk dəfə Kərkük azərbaycanlıları haqqında xalqa dolğun və ardıcıl məlumat verildi, ilk dəfə şərəfli keçmişimiz sistematik elmi və bədii araşdırmaların, deməli, həm də təbliğatın obyektinə çevrildi; ilk dəfə "kiçik qardaş" natamamlıq kompleksinin dağıdılması sayəsində qürurla "mən azərbaycanlıyam" demək mümkün oldu; ilk dəfə Azərbaycan dili danışıq və poeziya dili olmaqdan əlavə dövlət dili kimi fəaliyyət göstərdi və yaşamaq sferasına cəlb edildi.

Heydər Əlirza oğlunun milli siyasət konsepsiyasında ədəbiyyat - mədəniyyət iki aspektdə götürülmüşdür: birincisi, milli siyasət konsepsiyasının bazasının tərkib hissələrindən biri kimi; ikincisi, milli siyasət konsepsiyasının hədəflərindən biri kimi. Qlobal miqyasda düşünmək istedadına malik Heydər Əlirza oğlu çox gözəl bilirdi ki, Azərbaycan xalqı ayrı-ayrı hallar istisna olmaqla, bütün tarixi boyu birliyini, bütövlüyünü, etnik mövcudluğunu ilk növbədə milli bədii Sözün qüdrəti hesabına qoruyub saxlayıbdır. Milli söz xalqı öz işığına toplamaqla öz enerjisi hesabına yadlaşmanın qarşısını alıbdır. Uzun müddət marağının və mənafeyinin müdafiəsini rəsmi dövlət strukturlarında da görə bilməyən, Sözdə tapan xalqda Sözə inamla yaşamaq həyat tərzinə çevrilmişdi. Başqa güvənc yeri olmadığına görə Sözə inam dominant status qazanmışdı. Bu inamı bir tərəfdən Söz, öz müqəddəslik missiyasını ləyaqətlə yerinə yetirməklə, digər tərəfdən də söz sahibləri - yaradıcı qüvvələr daha da gücləndirmişdilər.

Sənət və sənətkarlar Heydər Əlirza oğlunun milli siyasət konsepsiyasında ancaq tarixi mənbə deyil, eyni zamanda bu siyasəti ənənəvi funksiyasında gerçəkləşdirən güc və qüdrətdir. Daha doğrusu, Heydər Əlirza oğlu əvvəlki dövrlərdə stixiyalı şəkildə milli ideologiyaya zəmin hazırlayan, xalq enerjisini tükənməyə qoymayan sənət və sənətkarların 60-80-ci illərdə də missiyalarını yerinə yetirmələrini məqsədyönlü şəkildə tənzimləyirdi.

Sözün, sənətin cari vəzifəsini perspektiv vəzifəsi ilə milli maraqlara müvafiq əlaqələndirən Heydər Əlirza oğlu nəzəri, dövlət quruculuğu istedadını da hamilik, qoruyuculuq bacarığı ilə tamamlayırdı. Aydındır ki, ədəbiyyat və sənət qarşısına qoyulan müqəddəs vəzifələri nəzərdə tutulan tutumda həyata keçirməsi üçün, onun fəaliyyətinə, xüsusən də milli mənafeyə uyğun istiqamətdə fəaliyyətinə şərait və zəmin yaradılmalı idi.

**Elm-təhsil sahəsində.** Bu sahədə də dönüşü Heydər Əlirza oğlu yaratdı. Milli mənafe, Azərbaycanın gələcək taleyi əsas götürüldü. Keçmiş SSRİ-dəki türkdilli respublikalar arasında yalnız Azərbaycan bütün təzyiqlərə, manеələrə baxmayaraq, təhsil sisteminin milliliyini qoruyub saxlamağa nail oldu. Təhsil sistemində isə millilik tədris dilinin ana dili olmasına, şagirdlərin, fərz edək ki, riyaziyyat fənnini məhz azərbaycanlı kimi öyrənməsinə zəmin yaratmaqdır. Etiraf edək ki, əksər sahələrdə olduğu kimi, təhsil sahəsində də milli ruh Heydər Əlirza oğlunun milli siyasət kursunun gücünə reallaşdı. Keçmiş SSRİ-nin maddi-texniki bazası müasir tələblərə cavab verən tədris ocaqlarına azərbaycanlı tələbələrin oxumağa göndərilməsi uzaqgörən siyasi məqsəddən irəli gəlirdi. Qıraqda təhsil alan tələbələrin böyük əksəriyyəti Azərbaycanın professionallara ehtiyac duyduğu ixtisaslar üzrə seçilirdi.

Heydər Əlirza oğlunun dediyi kimi: "Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir". Məhz bu qüdrətinə görə dil onun milli siyasət konsepsiyasında önəmli yer tutur.

**"Dili yaşatmaq xalqı yaşatmaqdır"** devizi ilə fəaliyyət göstərən Heydər Əlirza oğlu partiyanın plenum və qurultaylarında rus dilində danışmaq məcburiyyətində idi. Amma 60-cı illərdən sonra Azərbaycan Yazıçılar İttifaqının əksər qurultayında və bir çox başqa tədbirlərdə iştirak edən Heydər Əlirza oğlu fəxrlə şirin Azərbaycan dilində danışırdı.

1980-ci illər doğma dilimizin məhv olması üçün ən real təhlükə yarandığı tragik vaxtlardı. Həmin dövrdə Heydər Əlirza oğlu özü ana dilində danışmaqla, dilçilik elminin inkişafında rolu olan dilçi alimlərin elmi axtarışlarını respublika mükafatları ilə qiymətləndirməklə, başqa xalqların ədəbiyyatlarının Azərbaycan dilinə tərcüməsinə maraq oyatmaqla, Azərbaycan dilini bəladan qurtardı, onun yaşamaq haqqı imtiyazını özünə qaytardı. Dediyimiz kimi, dil isə elə xalqın özüdür.

Azadlığını və müstəqilliyini qazanana kimi (və bu tarixi haqqımız olan nemətlərin qazanılmasını hazırlayan) Heydər Əlirza oğlunun şərti mənada milli siyasət konsepsiyası, doktrinası adlandırdığımız (ona görə şərti ki, hələ konsepsiya yox, konsepsiyanın nəzəri bazası hazırlanırdı) kursunu və fəaliyyət xəttini izləyərkən onun əvəzsiz şəxsiyyəti, nadir tarixi sima olması bir daha təsdiqlənir.